“2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın 2018-ci ilin 4-cü rübündə icrasına dair monitorinq və qiymətləndirmə HESABATI

Metodoloji izahat

“2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın 2018-ci ilin 4-cü rübündə icrasına dair monitorinq və qiymətləndirmə hesabatı hazırlanarkən əvvəlki dövrdə monitorinq və qiymətləndirmə (M/Q) sahəsində araşdırılmış beynəlxalq təcrübə və Strateji Yol Xəritələrinin M/Q prosesində istifadə olunması üçün BMTİP-nin (UNDP) və Dünya Bankının texniki dəstəyi ilə İİTKM-də hazırlanmış təlimatlardan istifadə edilmişdir.

Fəaliyyət göstəricilərinin qiymətləndirilməsi

Təqdim olunan hesabatda tədbirlərin icrasının təsviri təhlil edilmiş, icranın məqsədlərə, xüsusən də gözlənilən nəticələrə uyğunluğu baxımından müqayisəsi aparılmış, təsdiqedici sənədlərdə yoxlanılmış və internet resurslarda müvafiq məlumatların mövcudluğu, habelə nəzərdən keçirilmişdir. Hər bir tədbirin qiymətləndirilməsi 3 səviyyəli *şkala üzrə aparılır:*

Tam icra - işlər plan üzrə tam yerinə yetirilmiş, gözlənilən nəticələr əldə olunmuşdur;

Qismən icra - işlər yetərli səviyyədə görülməyib, mahiyyətinə tam uyğun deyil və ya gözlənilən nəticələr əldə olunmayıb;

İcra olunmayıb - işlər çox az görülüb və ya faktiki olaraq mahiyyətə uyğun deyil.

Proqramın hər bölməsi (istiqaməti) ayrı-ayrılıqda qiymətləndirilmiş, tərəqqinin təsviri hesabatı, icra olunmuş fəaliyyətlərin qiymətləndirmə cədvəlləri tərtib edilmişdir. Əsas istiqamətlər və Dövlət Proqramı üzrə ümumi qiymətləndirmə aparılarkən tədbirlərə verilmiş qiymətlərin ortalaması çıxarılmışdır (riyazi hesablama zamanı qiymətlər 100-0 bal arası götürülmüşdür).

“2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın operatoru və monitorinq və qiymətləndirməni həyata keçirən qurum tərəfindən tədbirlər planının əsas icraçı qurumlarının rəy və təklifləri nəzərə alınmaqla hər bir tədbir üzrə alt tədbirləri özündə ehtiva edən təfsilatli tədbirlər planı işlənib hazırlanmışdır. Dövlət Proqramının hər bir istiqaməti bu istiqamətdə yer alan alt tədbirlər üzərindən qiymətləndirilmişdir.

Tərəqqiyə ümumi rəy:

“2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın 2018-ci ilin IV rübünün icra vəziyyətinə dair hesabatın təhlili göstərir ki, əksər tədbirlər üzrə dolğun məlumat təqdim edilmişdir. Emal edilən məlumatlar icraçılar tərəfindən görülmüş işlərin tədbirlərin mahiyyətinə uyğunluq səviyyəsini əksər hallarda təsəvvür yaratmağa imkan verir.

Planlaşdırılmış tədbirlərin 67%-nin icrası yekunlaşmış, 15%-i qismən icra edilmiş, 18% isə icra olunmamış hesab edilir. Ümumilikdə proqramın cari dövr üçün icrası 74 bal səviyyəsində qiymətləndirilmişdir.

Proqram üzrə əsas fəaliyyətlər:

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planına uyğun olaraq icraçı qurumlar aşağıdakı əsas istiqamətlər üzrə fəaliyyətlərini həyata keçirmişlər:

1) Rəqəmsal ödənişlərin institusional mühitinin daha da yaxşılaşdırılması *(ümumi qiymət “83”)*;
2) Bank sektorunun yenidən canlandırılması *(ümumi qiymət “72”)*;
3) Rəqəmsal ekosistemin formalaşdırılması *(ümumi qiymət “62”)*;
4) Rəqəmsal ödənişlər üzrə maarifləndirmə və təbliğatın gücləndirilməsi *(ümumi qiymət “100”)*;

"2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın 2018-ci ilin 4-cü rübündə icra vəziyyəti



"2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın 2018-ci ilin 4-cü rübündə icra vəziyyəti



"2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın 2018-ci ilin 4-cü rübündə icra vəziyyəti

Prioritetlərin icra vəziyyəti

<10 | 10—90 | >90

Əlverişli biznes mühitinin inkişaf etdirilməsi	33%	Yeni rəqəmsal ödəniş texnologiyalarının tətbiqi	100%
Vergi sisteminin effektivliyinin artırılması	100%	Rəqəmsal bankçılığın inkişaf etdirilməsi	100%
Sosial müdafiə sisteminin gücləndirilməsi üçün qeyri-formal məşğulluğun azaldılması istiqamətində tədbirlərin görülməsi	75%	Smart ödəniş vasitələrinin geniş tətbiqi	33%
Bank sektorunun sağlamlaşdırılması tədbirlərinin sürətləndirilməsi	50%	Mövcud elektron ödəniş xidmətlərinin effektivliyinin və təhlükəsizliyinin yüksədilməsi	0%
Aktiv pul bazarının formalaşdırılması	100%	Regionlarda və ucqar ərazilərdə maliyyə inklüzivliyinin artırılması	100%
Rəqəmsal sahibkarlığın inkişaf etdirilməsi	17%	Rəqəmsal ödənişlərin stimullaşdırılması	100%
Elektron ticarətin inkişaf etdirilməsi	33%	Maliyyə savadlılığının yüksəldilməsi	100%
Ödəniş xidmətləri üzrə hüquqi bazanın təkmilləşdirilməsi	100%	Rəqəmsal ödənişlər haqqında ictimai məlumatlılığın artırılması	100%

Əsas problemlər:

1) Rəqəmsal ödənişlərin institusional mühitinin daha da yaxşılaşdırılması istiqamətində müxtəlif sektorlarda sahəvi klasterlərin yaradılması və təşviqi ilə bağlı yerli şəraitə uyğun təkliflər hazırlanmamışdır (1.1.4).

2) Likvidliyin monitorinqi və proqnozlaşdırılması üçün nəzərdə tutulan yeni və daha təkmil alətlər müəyənləşdirilməmişdir (2.1.1).

3) Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, kreditorların hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi üzrə xüsusi planın hazırlanmasına dair işlər görülməmişdir (2.1.4).

4) Rəqəmsal sahibkarlıq fəaliyyətlərinin idarə edilməsi və təşviqi üçün hüquqi və institusional çərçivənin təkmilləşdirilməsi məqsədi ilə aparılmış araşdırmalar və hazırlanmış qanun layihələri yalnız innovativ xarakterli fəaliyyəti əks etdirir və ənənəvi fəaliyyət növlərinin rəqəmsal formada həyata keçirilməsi ilə bağlı məsələləri əhatə etməməkdədir (3.1.1).

5) Rəqəmsal sahibkarlıq subyektlərinə hüquqi yardım və IT dəstəyi verilməsinin intensivləşdirilməsi məqsədilə müəyyən işlər görülmüş, lakin bu istiqamətdə təkliflərin hazırlanması gecikməkdədir (3.1.2).

6) Startap layihələrin yaradıcıları üçün maarifləndirici təlim mövzularının müəyyənləşdirilməsi və təlimlərin keçirilmə planının hazırlanması gecikməkdədir (3.1.2).

7) Startapların ali təhsil və elmi tədqiqat müəssisələri, sənaye və texnologiyalar parkları ilə qarşılıqlı fəaliyyəti məqsədilə iş planının hazırlanması gecikməkdədir (3.1.3).

8) Yeni yaradılan məhsul, xidmət və texnologiyaların qısa müddətdə daxili və xarici bazarlara çıxarılması istiqamətində müvafiq işlər görülməmişdir (3.1.3).

Tələb olunan əsas tədbirlər:

1) Rəqəmsal ödənişlərin institusional mühitinin daha da yaxşılaşdırılması məqsədilə müxtəlif sektorlarda sahəvi klasterlərin yaradılması və təşviqi ilə bağlı dünya təcrübəsi araşdırılmışdır, bu məlumatları nəzərə alaraq yerli şəraitin qiymətləndirilməsi və bu istiqamətdə müvafiq infrastrukturun, eyni zamanda qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması tövsiyə olunur.

2) Likvidliyin monitorinqi və proqnozlaşdırılması üçün Likvidliyin idarəolunması qaydasına əsasən stress-testlər istifadə olunur. Bu istiqamətdə beynəlxalq təcrübənin araşdırılması, yeni və daha təkmil alətlərin müəyyənləşdirilməsi tövsiyə olunur.

3) Kreditorların hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi istiqamətində görülmüş işlər müsbət təsir göstərsə də bu fəaliyyətin sistemli şəkildə aparılması məqsədi ilə xüsusi planın hazırlanması zəruri hesab olunur.

4) Rəqəmsal sahibkarlıq fəaliyyətlərinin idarə edilməsi və təşviqi üçün hüquqi və institusional çərçivənin təkmilləşdirilməsi məqsədi ilə daha geniş araşdırmanın aparılması, sadəcə innovativ deyil, istənilən növ sahibkarlıq fəaliyyətinin rəqəmsallaşdırılması ilə bağlı məsələləri əks etdirən qanunvericilik dəyişikliklərinə dair layihələrin hazırlanması məqsədəmüvafiqdir.

5) Rəqəmsal sahibkarlıq subyektlərinə hüquqi yardım və IT dəstəyi verilməsinin intensivləşdirilməsi məqsədilə təkliflərin hazırlanmasının digər məsələlərdən daha öncə həyata keçirilməsi tövsiyyə olunur.

6) Startap layihələrin yaradıcıları üçün müxtəlif təlimlər keçirilməkdədir, lakin maarifləndirici təlim mövzularının müəyyənləşdirilməsi və təlimlərin keçirilmə planının təlimlərin keçirilməsindən daha öncə hazırlanması məqsədəmüvafiqdir.

7) Startapların ali təhsil və elmi tədqiqat müəssisələri, sənaye və texnologiyalar parkları ilə qarşılıqlı fəaliyyəti təmin edilmişdir.Lakin bu istiqamətdə planlı və sistematik fəaliyyətin təmin edilməsi məqsədilə iş planının hazırlanması tövsiyyə olunur.

8) Ali təhsil müəssisələrində İKT sahəsində fəaliyyət göstərən tanınmış xarici və yerli şirkətlərin tədris və təcrübə laboratoriyalarının yaradılması və genişləndirilməsi ilə əlaqədar görülmüş işlər yalnız marifləndirmə xarakterlidir.Burada əsas məqsəd isə yeni yaradılan məhsul, xidmət və texnologiyaların qısa müddətdə daxili və xarici bazarlara çıxarılması istiqamətində müvafiq işlərin görülməsidir.Bu baxımdan sözügedən istiqamətdə yanaşmanın müəyyənləşdirilməsi və iş planının hazırlanmasının sürətləndirilməsi tövsiyyə olunur.

İstiqamət 1: Rəqəmsal ödənişlərin institusional mühitinin daha da yaxşılaşdırılması

Tərəqqinin təsviri hesabatı

Dövlət Proqramının 1-ci istiqaməti çərçivəsində rəqəmsal ödənişlərin institusional mühitinin daha da yaxşılaşdırılması məqsədi ilə 18alt tədbirin icrası nəzərdə tutulmuş və 17 tədbir üzrə işlər görülmüşdür. Görülən işlər nəticəsində əlverişli biznes mühitinin inkişaf etdirilməsi istiqamətində Rəqabət Məcəlləsinin yekun redaksiyası hazırlanmış və Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılmışdır. Kiçik və orta sahibkarlığın inkişafı məqsədi ilə "Startap"lar 3 il müddətinə, KOB klasterin iştirakçısı olan fərdi sahibkarlar isə 7 il müddətinə gəlir vergisindən azad olunmuşdur. Vergi sisteminin effektivliyinin artırılması istiqamətində yeni nəsil nəzarət-kassa aparatlarının tətbiqi məqsədi ilə beynəlxalq təcrübə araşdırılmış və yerli şəraitə uyğun "Proqram təminatlı kassa sistemlərinin tətbiqi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanmışdır. Eyni zamanda, özəl sektorda çalışan işçilərin əmək haqqından tutulan gəlir vergisi üzrə vergi yükünün azaldılması, sadələşdirilmiş verginin dərəcəsinin 4 faizdən 2 faizədək endirilməsi, mikro sahibkarlıq subyekti olan şəxslərin gəlirlərinin (mənfəətinin) 75 faizinin gəlir (mənfəət) vergisindən azad edilməsi, qanunvericiliklə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan kiçik sahibkarlıq subyektlərinin ödədikləri dividendlərin vergilərdən azad edilməsi kimi işlər görülmüşdür. Bundan başqa, mühasibat uçotunun elektron formada aparılmasının stimullaşdırılması, üçüncü şəxslərdən alınan məlumatların dairəsinin genişləndirilməsi məqsədilə də müvafiq qanunvericiliyə dəyişikliklər edilmişdir.
Sosial müdafiə sisteminin gücləndirilməsi üçün qeyri-formal məşğulluğun azaldılması istiqamətində neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən verginin 7 il müddətinə güzəştli şərtlərlə tutulması üçün müvafiq qanun dəyişikliyi edilmiş, həmçinin,"Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Qanun layihəsi hazırlanmış, əsas risk göstəricilərinin monitorinqi və təhlili sisteminin qurulması istiqamətində beynəlxalq təcrübə araşdırılmış və Asiya İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası kimi qurumlarla əməkdaşlıq əlaqələri qurulmuş, eyni zamanda, əmək müqaviləsinin bağlanmasının əhəmiyyətinin ictimaiyyətə çatdırılması istiqamətində müvafiq işlər görülmüşdür. Tikinti sahəsində minimum əmək standartlarının yaradılması məqsədilə "Dövlət satınalmalarında satınalan təşkilat tərəfindən podratçının tikinti və təmir üzrə layihə smeta sənədlərində əmək haqqı xərcləri və işçi qüvvəsi üzrə ixtisas uyğunluğunun müəyyənləşdirilməsi Qaydaları"nın layihəsi hazırlanmışdır.

İcra olunmuş fəaliyyətlərin qiymətləndirilməsi

Tam icra	**18 tədbirdən 13-ü**	**72%**
Qismən icra	**18 tədbirdən 4-ü**	**22%**
İcra olunmayıb	**18 tədbirdən 1-i**	**6%**

Planlaşdırılmış tədbir		Əsas icraçı qurum	İcra müddəti	Əsası (sübut)	3 səviyyəli şkala üzrə qiymət-ləndirmə
1.1 Əlverişli biznes mühitinin inkişaf etdirilməsi					
1.1.1.Əlverişli biznes mühitinin daha da inkişaf etdirilməsi məqsədilə rəqabət mühitinin gücləndirilməsi istiqamətində təkliflərin təqdim edilməsi					
1	Antiinhisar siyasətini formalaşdıran və həyata keçirən dövlət qurumlarının səlahiyyətlərinin artırılması istiqamətində təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi	İqtisadiyyat Nazirliyi	IV rüb	"İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il tarixli 5 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti əsasında mərkəzi icra hakimiyyəti orqanı olan Azərbaycan Respublikasının Antiinhisar və	Tam icra

				İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılmışdır.	
2	Rəqəmsal hesabatlılıq sisteminin yaradılması ilə bağlı beynəlxalq təcrübənin araşdırılması və yerli şəraitə uyğun müvafiq təkliflərin verilməsi	İqtisadiyyat Nazirliyi	2018 IV rüb	Beynəlxalq təcrübə (Rusiya, Qazaxıstan) araşdırılmış və yerli şəraitə uyğun müvafiq müddəalar Rəqabət Məcəlləsinin layihəsinə daxil edilmişdir.	Qismən icra
1.1.2. Kiçik və orta müəssisələrin rəqabət qabiliyyətinin artırılması üçün təkliflərin təqdim edilməsi					
1	Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən kiçik və orta sahibkarlara konsultasiya, brendinq və digər istiqamətlərdə dəstəyin göstərilməsi	İqtisadiyyat Nazirliyi	2018-2019	27 sentyabr 2018-ci il tarixində Rusiya Azərbaycan Regionlararası Forumu çərçivəsində təşkil edilmiş "Kiçik və orta biznes sahəsində əməkdaşlıq" mövzusunda dəyirmi masa, 2018-ci ilin 7-8 noyabr tarixlərində ABŞ-Xəzər İnnovasiya forumu, 4-7 dekabr 2018-ci il tarixlərində isə 24-cü Beynəlxaq Telekommunikasiya, Rabitə və Yüksək Texnologiyalar sərgisi keçirilmiş və bu tədbirlərdə bir sıra startap layihələrinin, kiçik və orta biznes subyektlərinin iştirakı təmin olunmuşdur. Tələbələr və biznes subyektlərinin maarifləndirilməsi məqsədilə Azərbaycan Texnologiya və Azərbaycan Dövlət İqtisad Universitetləri ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Baş	Qismən icra

				Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Dövlət Gömrük Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi, Rusiyanın Azərbaycanlı Gənclər Birliyi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və 20-dən çox sahibkarlıq subyektləri ilə əməkdaşlığa dair anlaşma memorandumları imzalanmışdır.	
2	Kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı problemlərin mütəmadi araşdırılması və biznes qurumları ilə dövlət qurumları arasında əməkdaşlığın qurulması üzrə yerli şəraitə uyğun müvafiq təkliflərin hazırlanması	İqtisadiyyat Nazirliyi	2018 IV rüb	Kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq dəyişikliklər edilmişdir. Nəticədə mikro və ya kiçik sahibkarlıq subyekti olan və fərdi sahibkar kimi fəaliyyət göstərən startapların “Startap” şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlir 3 il müddətinə, KOB (mikro, kiçik və orta sahibkarlıq) klasterin iştirakçısı olan fərdi sahibkarın KOB klaster şirkəti ilə bağlanılmış müqavilə əsasında təqdim etdiyi mal (iş, xidmət) üzrə əldə etdiyi gəlirin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi 7 il müddətinə gəlir vergisindən azad olunmuşdur. biznes qurumları ilə dövlət qurumları arasında əməkdaşlığın qurulması istiqamətində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin “Kiçik və orta biznesin dostu” layihəsi həyata keçirilir. Lənkəran, Quba-Xaçmaz, Gəncə-Qazax iqtisadi rayonları pilot rayonlar müəyyən edilmişdir.	Qismən icra

1.1.3.Rəqabət Məcəlləsinin yekun redaksiyasının hazırlanması və aidiyyəti üzrə təkliflərin təqdim edilməsi					
1	İnhisarçılıq fəaliyyətinin, o cümlədən haqsız rəqabətin qarşısının alınmasının və aradan qaldırılmasının təşkilati və hüquqi əsaslarını müəyyən edən Rəqabət Məcəlləsinin yekun redaksiyasının hazırlanması ilə əlaqədar aidiyyəti üzrə təkliflərin təqdim edilməsi	İqtisadiyyat Nazirliyi	2018-2019	İqtisadiyyat Nazirliyi, Avropa İttifaqı və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən əvvəllər hazırlanmış layihə əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin, habelə Ədliyyə və Vergilər nazirliklərinin əməkdaşlarının iştirakı ilə Rəqabət Məcəlləsinin yekun layihəsi hazırlanmışdır.	Tam icra
1.1.4. Müxtəlif sektorlarda sahəvi klasterlərin yaradılmasının təşviqi					
1	Müxtəlif sektorlarda sahəvi klasterlərin yaradılmasının təşviqi ilə əlaqədar beynəlxalq təcrübənin araşdırılması və yerli şəraitə uyğun müvafiq təkliflərin hazırlanması	İqtisadiyyat Nazirliyi	2018 IV rüb	Bu istiqamətdə beynəlxalq təcrübə araşdırılmışdır. Eyni zamanda 26 noyabr 2018-ci il tarixində seminar təşkil edilmişdir. ***Lakin beynəlxalq təcrübənin araşdırılması nəticəsində yerli şəraitə uyğun müvafiq təkliflərin hazırlanması həyata keçirilməmişdir.***	İcra olunmayıb
1.2. Vergi sisteminin effektivliyinin artırılması					
1.2.1.Vergitutma mexanizminin sadələşdirilməsi, vergi yükünün optimallaşdırılması					

1	Vergitutma mexanizminin sadələşdirilməsi, könüllü əməletməyə stimullar yaradan daha təkmil vergi strukturu və optimal vergi yükünün formalaşdırılması məqsədilə ədalətli vergi səviyyəsinin qiymətləndirilməsi və beynəlxalq təcrübə araşdırılmaqla yerli şəraitə uyğun təkliflərin hazırlanması	Vergilər Nazirliyi	2018 IV rüb - 2019 I rüb	Xarici ölkələrdə vergi yükünün dərəcələri bir sıra beynəlxalq təşkilatların (Heritage fondu, Qlobal Rəqabətlik Hesabatı və s.) və inkişaf etmiş ölkələrin statistika orqanlarının təqdim etdikləri göstəricilər əsasında müəyyən olunmuş və nəticədə müqayisəli təhlillər həyata keçirilmişdir. Hazırlanmış layihələr əsasında Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilmişdir. Bu dəyişikliklərdə özəl sektorda çalışan işçilərin əmək haqqından tutulan gəlir vergisi üzrə vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması (8000 manatadək aylıq gəlirə tətbiq olunan vergi dərəcəsi "0" faiz müəyyən olunmuşdur), sadələşdirilmiş verginin dərəcəsinin 4 faizdən 2 faizədək endirilməsi, mikro sahibkarlıq subyekti olan şəxslərin gəlirlərinin (mənfəətinin) 75 faizinin gəlir (mənfəət) vergisindən azad edilməsi, qanunvericiliklə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan kiçik sahibkarlıq subyektlərinin ödədikləri dividendlərin vergilərdən azad edilməsi və s. kimi vacib istiqamətlər nəzərdə tutulmuşdur. Qeyd olunan dəyişikliklər 2019-cu ilin 1 yanvar tarixindən qüvvədədir.	Tam icra
1.2.2. Vergi inzibatçılığının daha da təkmilləşdirilməsi					

1	Vergiyə cəlbi stimullaşdıran, vergi uçotunun və hesabatlığının aparılması üzrə məsləhət xidmətlərinin geniş miqyasda və effektiv tətbiqini nəzərdə tutan vergi inzibatçılığının daha da təkmilləşdirilməsi məqsədilə aparıcı ölkələrin təcrübələrinin nəzərdən keçirilməsi və təkliflərin hazırlanması	Vergilər Nazirliyi	2018 IV rüb	Aparıcı ölkələrin vergi sistemində tətbiq olunan vergi məsləhətçiləri ilə bağlı mövcud vəziyyət, yanaşmalar və müxtəlif dəstək mexanizmləri araşdırılmışdır. Beynəlxalq təcrübənin öyrənilməsi nəticəsində vergi ödəyicilərinin uçot-baza məlumatlarının dürüstləşdirilməsi ilə bağlı vergi inzibatçılığının təkmilləşdirilməsi, gəlirlərin və xərclərin uçotunun aparılmasına dair tələblərin və onların pozulmasına görə sanksiyalarının sərtləşdirilməsi, kiçik və orta sahibkarlar tərəfindən gəlir və xərclərin dürüst uçotunun aparılmasına görə vergi stimullarının verilməsi və mənfəət vergisi ödəyicilərinin əhatəsinin dəqiqləşdirilməsi ilə bağlı hazırlanmış müddəalar Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"na daxil edimişdir. .	Tam icra
1.2.3. Vergi auditinin və hesabatlılığının effektivliyinin artırılması					
1	Beynəlxalq təcrübə nəzərə alınmaqla tətbiq edilən elektron mühasibatlıq sisteminin qiymətləndirilməsi və təkmilləşdirilmə ehtiyacının müəyyənləşdirilməsi	Vergilər Nazirliyi	2018 IV rüb - 2019 I yarımillik	Xarici ölkələrdə tətbiq olunan elektron mühasibatlıq sisteminin ilə bağlı araşdırma aparılmış, elektron mühasibatlığın funksiyaları, uçotun təşkili, xüsusiyyətləri və üstünlükləri barədə arayış hazırlanmışdır.	

				Ölkədə vergi ödəyicilərinin elektron mühasibatlıq sisteminə keçidinin stimullaşdırılması məqsədilə Vergilər Nazirliyinin təşəbbüsü ilə mühasibat uçotunu elektron qaydada aparan şəxslərin əhatə dairəsi müəyyən olunmuş və bununla bağlı qanun layihəsi hazırlanmışdır. Mühasibat uçotunun elektron formada aparılmasının stimullaşdırılması məqsədilə Vergi Məcəlləsinə əlavə olunan yeni 16.1.3-1-ci maddəyə uyğun olaraq "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mühasibat uçotunu məcburi qaydada elektron formada aparmalı şəxslər tərəfindən siyahısı və forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməsini təmin etmək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir. Həmçinin, mühasibat uçotunu elektron formada aparan şəxslərin təqdim etməli olduğu məlumatlara dair təkliflər hazırlanmışdır.	Tam icra
3	Üçüncü şəxslərdən alınan məlumatların dairəsinin genişləndirilməsi	Vergilər Nazirliyi	2018 IV rüb - 2019	Üçüncü şəxslərdən alınan məlumatların dairəsinin genişləndirilməsi məqsədilə hazırlanmış dəyişikliklər Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli "Azərbaycan	

				Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu”na daxil edimişdir. Qeyd olunan dəyişikliklər 2019-cu ilin 1 yanvar tarixindən qüvvədədir. Eyni zamanda, Vergi Məcəlləsinin 26.2.1-ci maddəsinin tələblərindən irəli gələrək ötürüləcək məlumatların əhatə dairəsinə dair normativ hüquqi akt layihəsi hazırlanmaqdadır.	Tam icra
5	Beynəlxalq təcrübə nəzərə alınmaqla mühasibat uçotunu elektron formada aparan sahibkarlıq subyektlərinə təqdim ediləcək vergi imtiyazlarına dair təkliflərin hazırlanması	Vergilər Nazirliyi	2018 IV rüb	Mühasibat uçotunu elektron formada aparan sahibkarlıq subyektlərinə təqdim ediləcək vergi imtiyazlarına dair layihə beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmışdır. Həmin layihə Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu”na daxil edilmişdir. 2019-cu ilin 1 yanvar tarixindən qüvvədə olan dəyişikliklərə əsasən elektron formada təqdim edilən məlumat əsasında aşkar edilmiş, azaldılmış və ya yayındırılmış vergi məbləğinə digər vergi ödəyicilərindən fərqli olaraq 50 faiz deyil, 25 faiz miqdarında maliyyə sanksiyasının tətbiq ediləcəkdir.	Tam icra

9	Beynəlxalq təcrübə nəzərə alınmaqla elektron auditin çərçivəsinin genişləndirilməsi və elektron audit tezliyinin artırılması üzrə yerli şəraitə uyğun yanaşmanın müəyyənləşdirilməsi (müvafiq olaraq, optimal əhatə dairəsi və optimal tezlik daxil olmaqla) və iş planının tərtib edilməsi	Vergilər Nazirliyi	2018 IV rüb - 2019 I yarımillik	Bu istiqamətdə xarici ölkələrin təcrübələri araşdırılmış elektron auditin proqram təminatı, zəif və üstün cəhətləri, həmin proqram təminatının tətbiq edən ölkələrdəki mövcud vəziyyət barədə icmal hazırlanmışdır. Həmçinin, Asiya İnkişaf Bankı ilə əməkdaşlıq çərçivəsində elektron audit sahəsində texniki yardımın istiqamətləri müəyyən olunmuş və iri həcmli məlumatları emal edən proqram təminatı üzrə lisenziyaların əldə olunmasını və həmin proqram təminatının istifadəsi üzrə azı 20 vergi orqanı əməkdaşlarının təlimlərə cəlb olunmasını nəzərdə tutan razılaşma əldə olunmuşdur.	Tam icra
1.2.4. Sadələşdirilmiş vergi sisteminin tədricən ƏDV sistemi ilə əvəzləşdirilməsi və ƏDV dərəcəsinin diferensiallaşdırılması					
1	Beynəlxalq təcrübə nəzərə alınmaqla sadələşdirilmiş vergi ödəyicilərinin dairəsinin məhdudlaşdırılması, təsərrüfat subyektlərinin sadələşdirilmiş vergi sistemindən ƏDV sisteminə mərhələli keçid mexanizminin yaradılması və ƏDV dərəcəsinin diferensiallaşdırılması üzrə yerli şəraitə uyğun təkliflərin hazırlanması	Vergilər Nazirliyi	2018 IV rüb - 2019 I rüb	Sadələşdirilmiş vergi ödəyicilərinin dairəsinin məhdudlaşdırılması istiqamətində beynəlxalq təcrübə araşdırılmış və xarici ölkələrdə kiçik və orta sahibkarlıq subyektlərinə tətbiq olunan bu vergi rejimi ilə bağlı icmal hazırlanmışdır. İcmalda OECD təcrübələrinə istinad olunmuş və sadələşdirilmiş vergi sisteminin əsas cəhətləri, sadələşdirilmiş verginin növləri, ƏDV-in sadələşdirilməsi ilə bağlı ölkə nümunələrinə xüsusi yer verilmişdir. Həmçinin, sadələşdirilmiş vergi ödəyicilərinin dairəsinin məhdudlaşdırılması ilə bağlı müddəalar Azərbaycan	Tam icra

				Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"na daxil edimişdir.	
1.2.5. "Vahid Mühasibatlıq Sistemi"nin tətbiq edilməsi					
1	Beynəlxalq təcrübə nəzərə alınmaqla bütün vergi ödəyicilərinin "Vahid Mühasibatlıq Sistemi"nə keçidi imkanlarının təhlil edilməsi	Maliyyə Nazirliyi	2018 IV rüb - 2019 I rüb	"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişikliklər aparılmış, "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihəsi hazırlanmışdır. Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzinin 2018-ci il üçün tədris plan-qrafiki"nə uyğun olaraq "KOS subyektlərində mühasibat uçotunun aparılması, habelə maliyyə hesabatlarının tərtib edilməsi" mövzusunda təşkil edilmiş təlimlərdə ümumilikdə 1486 dinləyici iştirak etmişdir.	Tam icra
1.3. Sosial müdafiə sisteminin gücləndirilməsi üçün qeyri-formal məşğulluğun azaldılması istiqamətində tədbirlərin görülməsi					
1.3.1. Əməkhaqlarının rəsmiləşdirilməsinə işəgötürənlərin və işçilərin həvəsləndirilməsi üçün tədbirlərin həyata keçirilməsi					

1	İşəgötürənlərin və fiziki şəxslərin gəlir vergisinin və məcburi dövlət sosial sığorta haqlarının optimallaşdırılması üzrə təkliflərin hazırlanması və müvafiq tədbirlərin görülməsi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2018 IV rüb - 2019 I yarımillik	Məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması və ödənilməsinə nəzarət üzrə fəaliyyətin Vergilər Nazirliyinə verilməsi ilə məcburi dövlət sosial sığorta haqları üzrə sığortaedənlərə və sığortaolunanlara düşən yükün və fiziki şəxslərin gəlir vergisinin tənzimlənməsini əks etdirən "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Qanun layihəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2018-ci il tarixli 423 nömrəli Fərmanı ilə təsdiq edilmiş və 2019-cu ilin 1 yanvar tarixindən tətbiq olunur. Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən verginin 7 il müddətinə güzəştli şərtlərlə tutulması üçün Vergi Məcəlləsinin 101-ci maddəsinə dəyişiklik edilmişdir.	Tam icra
1.3.2. Qeyri-formal məşğulluğun yüksək olduğu sektorlarda əmək müqaviləsi qeydiyyata alınmamış işçi sayının azaldılması üçün "minimum əmək" standartlarının yaradılmasının nəzərdən keçirilməsi					

1	Beynəlxalq təcrübə nəzərə alınmaqla, tikinti sektorunda “minimum əmək” standartlarının tətbiqi üzrə təkliflərin hazırlanması	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2018 IV rüb - 2019 I rüb	Tikinti sektorunda qeydiyyatsız əmək fəaliyyətinin qarşısının alınması üçün minimum əmək standartlarının yaradılması məqsədilə “Dövlət satınalmalarında satınalan təşkilat tərəfindən podratçının tikinti və təmir üzrə layihə smeta sənədlərində əmək haqqı xərcləri və işçi qüvvəsi üzrə ixtisas uyğunluğunun müəyyənləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin qərar layihəsi hazırlanmış, işçi qrupda müzakirə edilərək təkmilləşdirilmişdir. ***Lakin tikinti sektorunda “minimum əmək” standartlara dai beynəlxalq təcrübə araşdırılmamış, və ölkəmizdə tətbiq edilməsi imkanlarına dair təkliflər hazırlanmamışdır.***	İcra olunmayıb
1.3.3. Riskəsaslı audit mexanizmlərinin yaradılması imkanlarının nəzərdən keçirilməsi					
1	Sosial müdafiə tədbirlərinin ünvanlılığının və effektivliyinin artırılması üçün əsas risk göstəricilərinin monitorinqi və təhlili sisteminin qurulmasına dair beynəlxalq təcrübənin araşdırılması və yanaşmanın müəyyənləşdirilməsi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2018 IV rüb - 2019 I rüb	Asiya İnkişaf Bankının “Sosial müdafiə sahəsində DİM-lərə nail olunması istiqamətində genişləndirilmiş dəstək” layihəsinin keçirilməsi razılaşdırılmışdır. Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən risk əsaslı yoxlamaların aparılması üçün müasir metodologiya və prosedurların işlənməsi, risklərin təhlili və qiymətləndirilməsi üzrə Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən	Tam icra

				texniki dəstəyin göstərilməsi üçün Anlaşma Memorandumu layihəsi hazırlanmaqdadır. Sosial müdafiə sisteminin monitorinqi və ilkin yoxlamalar üçün müəyyənləşdirilmiş risklər üzrə məlumatlar Nazirliyin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin Təhlil AS-də yerləşdirilmiş, əmək müqaviləsi olmadan məcburi dövlət sosial sığorta haqqı ödəyən işçilərin müəyyənləşdirilməsi və ya əmək müqaviləsi olan, lakin məcburi dövlət sosial sığorta haqqı ödəməyənlər, əlilliyin müəyyən edilməsində istifadə edilən diaqnozların səhiyyə müəssisələri üzrə paylanma göstəricisi, ünvanlı dövlət sosial yardımı üçün hüquq yaradan status və kateqoriyalardan risk qrupuna düşən halların müəyyənləşdirilməsi kimi imkanlar yaradılmışdır.	
1.3.4. Pensiya və digər sosial təminat hüquqlarının reallaşdırılması üçün əmək müqaviləsinin bağlanmasının əhəmiyyətinin ictimaiyyətə çatdırılmasının gücləndirilməsi					

1	Əmək müqaviləsinin bağlanmasının əhəmiyyətinin ictimaiyyətə çatdırılmasının gücləndirilməsi üçün müxtəlif tədbirlərin (o cümlədən marketinq kampaniyalarının) həyata keçirilməsi və məktəblərdə gənclərin maarifləndirilməsi üzrə iş planının hazırlanması və işçi qaydada aidiyyəti qurumlarla razılaşdırılması	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2018 IV rüb - 2019 I rüb	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet səhifəsində "ƏMƏK MÜNASİBƏTLƏRİ" adlı ayrıca bölmə yaradılmışdır. Press relizlər yayımlanmış, videorolik hazırlanmış və internet resurslarda yayımlanması təmin edilmişdir. Yaxın zamanlara icrası başlayacaq "İşsizin DOSTu" proqramı barədə ictimaiyyətin məlumatlandırılması həyata keçirilməkdədir. Televiziya kanallarında nazirliyin vəzifəli şəxsləri tərəfindən maarifləndirici müsahibələr verilmişdir. İşçiləri əmək müqavilələrinin bağlanmasının əhəmiyyəti və rəsmi məşğulluğun üstünlükləri barədə məlumatlandırmaq məqsədi ilə İş Planı təsdiq edilmiş və İşçi qrupu yaradılmışdır.	Tam icra

İstiqamət 2: Bank sektorunun yenidən canlandırılması

Tərəqqinin təsviri hesabatı

2-ci istiqamət çərçivəsində bank sektorunun yenidən canlandırılması məqsədi ilə icrası nəzərdə tutulmuş 11 alt tədbirdən 8-i üzrə işlər görülmüşdür. Bank sektorunun sağlamlaşdırılması tədbirlərinin sürətləndirilməsi məqsədilə bankların kapital vəziyyəti diaqnostika edilmiş, kapital çatışmazlıqları olan banklara icrası məcburi göstərişlər verilmiş, kapitallaşma perspektivi olmayan banklar sistemdən kənarlaşdırılmış, digər banklardan öhdəlik məktubları alınmışdır. Bankların kapitallaşması prosesləri ilə əlaqadər müvafiq plan təsdiq edilmişdir. *Bankların fəaliyyəti üzərində nəzarətin təkmilləşdirilməsi istiqamətində də beynəlxalq təcrübə araşdırılmış və* Konsolidasiya olunmuş nəzarətin Azərbaycan üçün Maliyyə konqlomeratları üzərindən təşkili məqsədəuyğun olaraq qiymətləndirilmişdir. *Kreditorların hüquqlarını müdafiə mexanizminin təkmilləşdirilməsi* məqsədilə beynəlxalq təcrübə araşdırılmış və təkliflərin verilmiş, girovun rəsmiləşdirilməsi və təminata tutmanın yönəldilməsi ilə bağlı qanunlarda dəyişiklik edilmiş, təkmilləşdirmə işləri həyata keçirilmişdir.

Aktiv pul bazarının formalaşdırılması məqsədilə beynəlxalq təcrübə araşdırılmış mövcud *marketmeykerlərin* daha da inkişaf etdirilməsi imkanları qiymətləndirilmişdir. Eyni zamanda *banklararası pul bazarının inkişafına xidmət edən infrastruktur elementlərinin inkişafının təmin edilməsi üçün* Blumberq ticarət sistemində banklararası pul bazarı əməliyyatlarının aparılması və onlayn rejimdə Mərkəzi Bank tərəfindən bu əməliyyatlarla bağlı məlumatların əldə edilməsi imkanını yaradan “E-Bond” platforması bankların istismarına verilmişdir. *Qiymətli kağızlar bazarının dərinləşdirilməsi məqsədilə g*irov kimi istifadə oluna bilən yerli korporativ istiqraz bazarının inkişafını şərtləndirən amillər araşdırılmış və bazarın inkişafı üzrə tövsiyələr verilmişdir. Bundan başqa, dövlət qiymətli kağızları və Mərkəzi Bankın notları üzrə ilkin və təkrar bazarda ticarətin vahid elektron ticarət platformasında (Blumberq) həyata keçirilməsi üçün qanunvericiliyə dəyişikliklər layihəsi hazırlanaraq, müvafiq instansiya orqanına təqdim olunmuşdur.

İcra olunmuş fəaliyyətlərin qiymətləndirilməsi

Tam icra	**11 tədbirdən 8-i**	**72,7%**
Qismən icra	**11 tədbirdən 0-ı**	**0%**
İcra olunmayıb	**11 tədbirdən 3-ü**	**27,3%**

Planlaşdırılmış tədbir		*Əsas icraçı qurum*	*İcra müddəti*	*Əsası (sübut)*	*3 səviyyəli şkala üzrə qiymət-ləndirmə*
2.1. Bank sektorunun sağlamlaşdırılması tədbirlərinin sürətləndirilməsi					
2.1.1. Bankların kapitallaşmasının nəzarətdə saxlanılması və likvidliyinin təmin edilməsi üzrə təkmil alətlərin işə salınması					
1	Əlavə kapitallaşmaya ehtiyacı olan banklarla kapitalizasiya planlarının təsdiq edilməsi və icrasına nəzarət	Maliyyə Bazarlarına Nəzarət Palatası	2018 - 2020	Bankların kapitallaşması prosesləri ilə əlaqadər müvafiq plan təsdiq edilmişdir və gündəlik əsasda nəzarət təmin olunmaqdadır. Bankların kapital vəziyyəti diaqnostika edilmiş, kapital çatışmazlıqları olan banklara icrası məcburi göstərişlər verilmiş, kapitallaşma perspektivi olmayan banklar sistemdən kənarlaşdırılmış, digər banklardan öhdəlik məktubları alınmışdır.	Tam icra
2	Kapital dayanıqlığını bərpa edə biməyən bankların “sağlamlaşdırıcı” konsolidasiya imkanlarına baxılması və zəruri hallarda müvafiq tədbirlərin görülməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	2018 - 2020	Kapitallaşma planı çərçivəsində Palata tərəfindən bankların konsolidasiyası imkanlarına baxılmışdır. Bu istiqamətdə empriik təhlillər aparılmaqla sinerji effektləri və potensial risklər müəyən edilmişdir. Dövr ərzində iki bankın	İcra olunmayıb

				konsolidasiyası Palatanın nəzarəti ilə başa çatdırılmışdır. Bundan əlavə, dövr ərzində bu istiqamətdə "Banklar haqqında" Qanununa dəyişikliklər və normativ xarakterli aktlar qəbul edilmişdir. ***Lakin təsdiqedici sənədlər təqdim olunmamışdır.***	
3	Banklararası bazarda likvidliyin monitorinqi və proqnozlaşdırılması üzrə daha təkmil alətlərin müəyyənləşdirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	2018 IV rüb - 2019 I yarımillik	2018-ci ildə də iqtisadiyyatın pula olan tələbinin təmin edilməsi və likvidliyin effektiv idarə olunması məqsədilə Mərkəzi Bank tərəfindən müxtəlif alətlər istifadə olunmuşdur. Mərkəzi Bank milli valyutada sərbəst vəsaitlərin cəlb olunması üzrə 55 depozit hərracı, notların yerləşdirilməsi üzrə 51 hərrac keçirmişdir. Depozit əməliyatları vasitəsilə vəsaitlər 14 gün müddətinə cəlb edilmiş, notlar isə 28 gün müddətinə yerləşdirilmişdir. Eyni zamanda müxtəlif müddətli açıq bazar əməliyyatlarından aktiv istifadə edilmişdir. ***Lakin bazarda likvidliyin monitorinqi və proqnozlaşdırılması üzrə daha təkmil alətlər müəyyənləşdirilməmişdir.***	İcra olunmayıb
2.1.3.Bankların fəaliyyəti üzərində nəzarətin təkmilləşdirilməsi					

1	Konsolidasiya olunmuş nəzarətin tətbiqi ilə bağlı araşdırmaların aparılması	Maliyyə Bazarlarına Nəzarət Palatası	2018 IV rüb - 2019 I rüb	Tədbirinin icrası ilə əlaqədar beynəlxalq təcrübə araşdırılmışdır. Konsolidasiya edilmiş nəzarətin tətbiqi ilə bağlı müxtəlif strukturlu holdinq qruplar (bank qrupu, maliyyə konqlomeratı, qarışıq fəaliyyət qrupu), onların fəaliyyətindən yaranan əsas risklər və bu risklərin tənzimlənməsi üçün qrup səviyyəsində prudensial tələblərin müəyyən edilməsi daxil olmaqla inteqrasiya edilmiş nəzarət sisteminin formalaşdırılması istiqamətində beynəlxalq təcrübə üç ölkə (Türkiyə, İngiltərə və Polşa) üzrə araşdırılmışdır. Bununla yanaşı, konsolidasiya edilmiş nəzarət üzrə Bazel Komitəsinin prinsipləri və Avropa İttifaqının tənzimlənmə və nəzarət direktivləri tədqiq edilmişdir. Beynəlxalq təcrübə nəzərə alınmaqla Konsolidasiya olunmuş nəzarətin Azərbaycan üçün Maliyyə konqlomeratları üzərindən təşkili məqsədəuyğun hesab olunur.	Tam icra
2.1.4.Kreditorların hüquqlarını müdafiə mexanizminin təkmilləşdirilməsi					

1	Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, kreditorların hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi üzrə xüsusi planın hazırlanması	Maliyyə Bazarlarına Nəzarət Palatası	2018 I rüb - 2019 II rüb	Aşağıdakı istiqamətdə tədbirlərin icrası təmin edilmişdir: İlk özəl kredit bürosu(“Azərbaycan Kredit Bürosu” Məhdud Məsuliyyətli Cəmiyyəti (Büro)) fəaliyyətə başlamış və 15 mart 2018-ci il tarixində istifadəyə verilmişdir Ötən dövr ərzində bütün bank və BOKT-lərin Reyestrə qoşulması təmin edilmiş, əsas hissəsini kredit təşkilatlarının təşkil etdiyi 600-dən artıq istifadəçi qeydiyyatdan keçmiş, müvafiq istifadəçilər tərəfindən 30 mindən çox bildiriş daxil edilmişdir. ***Bu istiqamətdə görülmüş işlər kreditorların hüquqlarının qorunmasına müsbət təsir göstərsə də tədbirdə bu fəaliyyətin sistemli şəkildə aparılması məqsədi ilə xüsusi planın hazırlanması zəruri hesab olunur. Bu planın hazırlanmasına dair işlər görülməmişdir.***	İcra olunmayıb
3	Məhkəmə qərarlarının qəbulu və icrası, girovun rəsmiləşdirilməsi və təminata tutmanın yönəldilməsi üzrə hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində beynəlxalq təcrübənin araşdırılması və təkliflərin verilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	2018 IV rüb	Tədbir çərçivəsində girovların alternativ satış üsullarının qiymətləndirilməsi həyata keçirilmiş, müvafiq iclas protokolları ilə təsdiq edilmişdir. Müvafiq qanunvericilik layihələri hazırlanaraq Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına təqdim edilmişdir. Girovun rəsmiləşdirilməsi və təminata tutmanın yönəldilməsi ilə bağlı qanunlarda dəyişiklik edilmiş,	Tam icra

				təkmilləşdirmə işləri həyata keçirilmişdir.	
2.2. Aktiv pul bazarının formalaşdırılması					
2.2.1.Marketmeyker institutunun yaradılması imkanlarının qiymətləndirilməsi					
1	Marketmeyker institutuna dair beynəlxalq təcrübənin araşdırılması, ölkədə bu sahədə mövcud vəziyyətin qiymətləndirilməsi və müvafiq təkliflərin hazırlanması	Mərkəzi Bank	2018 IV rüb	Ölkədə Marketmeyker institutu artıq tətbiq olunur. Lakin bu istiqamətdə beynəlxalq təcrübə araşdırılmış və onun daha da inkişaf etdirilməsi imkanları qiymətləndirilmişdir.Yerli şəraitə uyğun təkliflər hazırlanmışdır.	Tam icra
2.2.2.Banklararası pul bazarının inkişafına xidmət edən infrastruktur elementlərinin inkişafı					
6	Banklararası pul bazarında əməliyyatlar haqqında onlayn rejimdə məlumatların əldə edilməsi mexanizminin yaradılması	Mərkəzi Bank	2018 IV rüb	Blumberq ticarət sistemində banklararası pul bazarı əməliyyatlarının aparılması və onlayn rejimdə Mərkəzi Bank tərəfindən bu əməliyyatlarla bağlı məlumatların əldə edilməsi imkanını yaradan “E-Bond” platforması yerli bazarın şərtlərinə uyğun quraşdırılaraq, bankların istismarına verilmişdir.	Tam icra

10	Pul siyasəti alətlərinin kommunikasiyasının (internet səhifəsi, media və bazar iştirakçıları ilə kommunikasiya və .) həyata keçirilməsi	Mərkəzi Bank	2018 IV rüb - 2020 IV rüb	Mərkəzi bankın pul siyasəti alətləri və onların işləmə mexanizmi barədə məlumatlar mütəmadi olaraq - istər rəsmi internet səhifəsində, istərsə də press-relizlər və mətbuat-konfransları vasitəsilə geniş ictimaiyyətə çatdırılır. Pul siyasətinin effektiv kommunikasiyası xüsusi diqqətdə saxlanılmışdır. Mərkəzi Bankın hər bir siyasət qərarı ilə bağlı press-relizlər müvafiq analitik şərhlərlə internet səhifəsində dərc edilmiş, aparıcı media orqanlarına göndərilmişdir. Bununla yanaşı Mərkəzi Bankın əsas sözçüsü kimi sədr E.Rüstəmovun müntəzəm geniş mətbuat konfransları keçirilmişdir. Hazırda faiz dəhlizinin parametrlərinə dair pul siyasəti qərarları qrafik əsasında verilir. Eyni zamanda həmin qərarlar ictimaiyyətə açıqlanan təqvim əsasında geniş mətbuat konfransları, eləcə də müasir kommunikasiya kanalları, internet səhifəsi və sosial şəbəkə vasitəsilə kommunikasiya olunur.	Tam icra
2.2.3. Qiymətli kağızlar bazarının dərinləşdirilməsi və bu əsasda banklararası REPO bazarının inkişafı imkanlarının nəzərdən keçirilməsi					
1	Girov kimi istifadə oluna bilən korporativ qiymətli kağızlar bazarının genişləndirilməsi imkanlarının qiymətləndirilməsi	Mərkəzi Bank	2018 IV rüb	Tədbir 2018-ci ilin son rübündə icra olunmuşdur. Yerli korporativ istiqraz bazarı üzrə mövcud qaydalardan və bazarının	Tam icra

				üstünlüklərindən bəhs olunmuş, beynəlxalq təcrübə araşdırılmış, cari vəziyyət ətraflı şəkildə təhlil olunmuşdur. Girov kimi istifadə oluna bilən yerli korporativ istiqraz bazarının inkişafını şərtləndirən amillər araşdırılmış və bazarın inkişafı üzrə tövsiyələr verilmişdir.	
5	Dövlət qiymətli kağızlarının və Mərkəzi Bankın qısamüddətli notlarının həm ilkin, həm də təkrar bazarında əməliyyatların vahid elektron ticarət platformasına keçirilməsi	Mərkəzi Bank	2018 IV rüb - 2019 IV rüb	Dövlət qiymətli kağızları və Mərkəzi Bankın notları üzrə ilkin və təkrar bazarda ticarətin vahid elektron ticarət platformasında (Blumberq) həyata keçirilməsi üçün qanunvericiliyə dəyişikliklər layihəsi hazırlanaraq, müvafiq instansiya orqanına təqdim olunmuşdur. Dövlət qiymətli kağızları və notlar üzrə Blumberq platformasında ticarətin təşkili texniki cəhətdən hazırdır.	Tam icra

İstiqamət 3: Rəqəmsal ekosistemin formalaşdırılması

Tərəqqinin təsviri hesabatı

Dövlət Proqramının 3-cü istiqaməti üzrə rəqəmsal ekosistemin formalaşdırılması məqsədi ilə 21 alt tədbirdən 15-i icra olunmuşdur. Rəqəmsal sahibkarlığın inkişaf etdirilməsi istiqamətində *hüquqi bazanın təkmilləşdirilməsi* məqsədilə ölkədə vençur fəaliyyəti üzrə münasibətlərin, vençur şirkətlərinin, fondlarının, agentlərinin, brokerlərin hüquqi vəziyyətinin və fəaliyyət şərtlərinin tənzimlənməsi məqsədilə "Vençur fəaliyyəti haqqında" Qanun layihəsi hazırlanmış və müvafiq olaraq təqdim edilmişdir. Beynəlxalq təcrübəyə əsaslanmaqla ölkədə ödəniş xidmətləri və ödəniş sistemləri sahəsində tənzimləmə və nəzarət çərçivəsinin formalaşdırılması məqsədilə "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanun layihəsi hazırlanmışdır. Yeni rəqəmsal ödəniş texnologiyalarının tətbiqi məqsədilə Ani Ödənişlər sisteminin (AÖS) yaradılması üzrə texniki infrastrukturun hazırlanması üçün Əsas Şərtlər Toplusu, texniki tələblər hazırlanmış və bu əsasda beynəlxalq tender keçirilərək qalib seçilmiş şirkətlə müqavilə imzalanmışdır. *Ölkədə ən son maliyyə texnologiyalarınının tətbiqinin nəzərdən keçirilməsi istiqamətində* paylanılmış reyestr texnologiyalarının (PRT) maliyyə sektorunda tətbiqi imkanlarının araşdırılması və pilot sistemin yaradılması məqsədilə əlaqədar dövlət qurumları və pilot olaraq seçilmiş kommersiya banklarının rəsmi nümayəndələrindən ibarət işçi qrupu yaradılmışdır. Eyni zamanda, rəqəmsal bankçılığın inkişaf etdirilməsi istiqamətində bank sektorunda cari vəziyyətin qiymətləndirilməsi məqsədilə bank sektorunun rəqəmsal diaqnostikası aparılmış, bank sektoru üzrə sorğu keçirilmişdir.

Xarici turistlər üçün çoxfunksiyalı, öncədən ödənilmiş ödəniş məhsullarının tətbiqinin nəzərdən keçirilməsi istiqamətində BakuCard –ın 24 və 72 saatlıqları və 7 günlük növləri hazırlanmışdır. Rəsmi buraxılışı yaxın zamanda planlaşdırılan kart Bakı və dünya üzrə məşhur olan brend markalarla əməkdaşlıq edərək 65-in üzərində tərədaş və 350-nin üzərindən filial mağazaları ilə əməkdaşlığa nail olunmuşdur.

Ölkədə nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə vergi ödəyicisinin pərakəndə satış qaydasında təqdim etdiyi malların və ictimai iaşə fəaliyyəti üzrə göstərdiyi xidmətlərin dəyərinin POS-terminal vasitəsilə nağdsız ödənilən hissəsinin 25 faizi həcmində vergi tutulan gəlirlərindən azaldılmasını, istehlakçıların stimullaşdırılması məqsədilə istehlakçılar tərəfindən belə obyektlərdə xərclənən vəsaitlərin ƏDV-sinin müəyyən hissəsinin istehlakçılara geri qaytarılmasını nəzərdə tutan maddələr Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"na daxil edimişdir. Eyni zamanda rəqəmsal ödənişlərin stimullaşdırılması məqsədi ilə ümummilli stimullaşdırıcı lotereyanın keçirilməsi şərtləri hazırlanmış və nəzarət orqanı ilə razılaşdırılmışdır.

İcra olunmuş fəaliyyətlərin qiymətləndirilməsi

Tam icra	**21 tədbirdən 11-i**	**52,4%**
Qismən icra	**21 tədbirdən 4- ü**	**19%**
İcra olunmayıb	**21 tədbirdən 6-ı**	**28,6%**

	Planlaşdırılmış tədbir	Əsas icraçı qurum	İcra müddəti	Əsası (sübut)	3 səviyyəli şkala üzrə qiymət-ləndirmə
3.1. Rəqəmsal sahibkarlığın inkişaf etdirilməsi					
3.1.1.Hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə hüquqi aktların layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi					
1	Rəqəmsal sahibkarlıq fəaliyyətlərinin idarə edilməsi və təşviqi üçün hüquqi və institusional çərçivənin təkmilləşdirilməsi məqsədi ilə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla hüquqi aktların layihələrin hazırlanması	İqtisadiyyat Nazirliyi	2018 IV rüb - 2019 I yarımillik	İnnovasiya fəaliyyəti sahəsində elmi və elmi-texniki fəaliyyət nəticələrinin müasir sahibkarlığın, eləcə də rəqəmsal sahibkarlığın tələblərinə adaptasiya edilməsinin stimullaşdırılması zəruriliyindən irəli gələrək beynəlxalq təcrübə araşdırılmış və Finlandiya, Fransa, Almaniya, Macarıstan, Türkiyə, Ukrayna, Qazaxıstan təcrübələri öyrənilmişdir. Beynəlxalq nümunələrə əsaslanaraq, "İnnovasiya fəaliyyəti haqqında" Qanun layihəsi hazırlanmış və 7 yanvar 2019-cu il tarixli İN-X/O-171/2019 nömrəli məktubla Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilmişdir. Həmçinin, rəqəmsal iqtisadiyyata keçidlə əlaqədar ölkədəki mövcud vəziyyət öyrənilmiş və arayış hazırlanmışdır.	Qismən icra

2	“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri nəzərə alınmaqla özəl investisiya fondlarının (məsələn, vençur kapitalı) yaradılması üçün tənzimləyici normaların layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi	İqtisadiyyat Nazirliyi	2018 IV rüb - 2019 I yarımillik	Ölkədə vençur fəaliyyəti üzrə münasibətlərin, vençur şirkətlərinin, fondlarının, agentlərinin, brokerlərin hüquqi vəziyyətinin və fəaliyyət şərtlərinin tənzimlənməsi məqsədilə "Vençur fəaliyyəti haqqında" Qanun layihəsi hazırlanmış və müvafiq olaraq təqdim edilmişdir.	Tam icra
3.1.2.Startap layihələrinə qeyri-maliyyə dəstəyinin verilməsinin intensivləşdirilməsi məqsədilə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi					
1	Rəqəmsal sahibkarlıq subyektlərinə hüquqi yardım (məsələn, patent alınmasında) və IT dəstəyi (məsələn, internet infrastrukturu ilə təminat) verilməsinin intensivləşdirilməsi məqsədilə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi	İqtisadiyyat Nazirliyi	2018 IV rüb - 2019 I yarımillik	17 avqust 2018-ci il tarixində “MDB Start-ap platformu” layihəsinin Azərbaycan, Belarus, Qazaxstan, Qırğızstan, Özbəkistan, Moldova, Rusiya və Tacikistandan gələn nümayəndələrindən ibarət startapçı heyətlə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında görüş keçirilmiş və qeyri-maliyyə dəstəyi məsələləri də daxil olmaqla müzakirələr aparılmışdır. Eyni zamanda, tədbirin icrası istiqamətində aparılmış araşdırma və müzakirələrin nəticəsi olaraq rəqəmsal sahibkarlıq subyektlərinə hüquqi yardım və IT dəstəyi verilməsinin intensivləşdirilməsi məqsədilə 2019-cu ilin birinci yarısı ərzində müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi nəzərdə tutulmuşdur. Həmçinin, startap layihələrinə qeyri-maliyyə dəstəyinin verilməsinin intensivləşdirilməsi	İcra olunmayıb

				məqsədilə startap layihələrinin yaradıcıları üçün maarifləndirici təlim mövzularının müəyyənləşdirilməsi və təlimlərin təşkili istiqamətində işlər həyata keçirilir. ***Lakin rəqəmsal sahibkarlıq subyektlərinə hüquqi yardım və IT dəstəyi verilməsinin intensivləşdirilməsi məqsədilə təkliflər hazırlanmamışdır.***	
2	Startap layihələrin yaradıcıları üçün maarifləndirici təlimlərin keçirilməsi təlim mövzularının müəyyənləşdirilməsi və təlimlərin keçirilmə planının tərtib edilməsi	İqtisadiyyat Nazirliyi	2018 IV rüb-2019 I yarımillik	Startap layihələrin yaradıcıları üçün maarifləndirici təlim mövzularının müəyyənləşdirilməsi və təlimlərin keçirilmə planı hal-hazırda hazırlanmaqdadır. Bununla əlaqədar olaraq, startaplarla danışıqlar aparılır və müzakirələr əsasında planın hazırlanması istiqamətində işlər davam etdirilir. ***Lakin müvafiq işlərin görülməsinə dair təsdiqedici sənədlər təqdim olunmamışdır.***	İcra olunmayıb
3.1.3.Biznesə elm, startaplarla iri şirkətlər arasında əməkdaşlığın gücləndirilməsinin təşviqi					
1	İstedadlı gənclərin rəqəmsal sahibkarlığa cəlb edilməsi məqsədilə startapların ali təhsil və elmi tədqiqat müəssisələri, sənaye və texnologiyalar parkları, texnoloji biznes inkubatorlar və texnoloji transfer mərkəzləri ilə qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi üzrə iş planının tərtib edilməsi	İqtisadiyyat Nazirliyi	2018 IV rüb - 2019 I rüb	Hal-hazırda tədbirin icrası istiqamətdə müvafiq işlər həyata keçirilir və biznes inkubatorlarla müzakirələr aparılır. Gənclərin rəqəmsal sahibkarlığa cəlb edilməsi məqsədilə startapların ali təhsil və elmi tədqiqat müəssisələri, sənaye və texnologiyalar parkları ilə qarşılıqlı fəaliyyəti təmin edilmişdir.	İcra olunmayıb

				Lakin texnoloji biznes inkubatorlar və texnoloji transfer mərkəzləri ilə qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi üzrə iş planının tərtib edilməsi həyata keçirilməmişdir.	
2	Yeni yaradılan məhsul, xidmət və texnologiyaların qısa müddətdə daxili və xarici bazarlara çıxarılması məqsədilə startaplarla iri dövlət müəssisələri və özəl şirkətlər arasında əməkdaşlıq təşviq üzrə yanaşmanın müəyyənləşdirilməsi və iş planının tərtib edilməsi	İqtisadiyyat Nazirliyi	2018 IV rüb - 2019 I rüb	Tədbirin icrası üzrə işlər həyata keçirilir və bu istiqamətdə müvafiq araşdırmalar aparılır. Ali təhsil müəssisələrində İKT sahəsində fəaliyyət göstərən tanınmış xarici və yerli şirkətlərin tədris və təcrübə laboratoriyalarının yaradılması və genişləndirilməsi ilə əlaqədar ”Microsoft İmagine Academy”, “Huawei Authorized Information and Network Academy”, “Cisco Network Academy” şirkətlərinin təcrübə laboratoriyalarının qurulması istiqamətində işlər görülüb. Məqsəd təhsil müəssisələrində informasiya texnologiyaları sahəsində mütəxəssislərin hazırlığıdır. Bu barədə ali təhsil müəssisələrinə məktub ünvanlanıb. Hazırda proseslə əlaqədar işlər davam edir. ***Lakin yeni yaradılan məhsul, xidmət və texnologiyaların qısa müddətdə daxili və xarici bazarlara çıxarılması məqsədilə startaplarla iri dövlət müəssisələri və özəl şirkətlər arasında əməkdaşlığın təşviqi üzrə yanaşmanın müəyyənləşdirilməsi və iş planının tərtib edilməsi üzrə işlər görülməmişdir.***	İcra olunmayıb

3.2. Elektron ticarətin inkişaf etdirilməsi					
3.2.1.Elektron ticarət infrastrukturunun genişləndirilməsi					
1	İnternet provayderlərə və mobil operatorlara regionlarda minimal internet sürəti üzrə tələblərin müəyyənləşdirilməsi	Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	2018 IV rüb-2019 I yarımillik	İKT arxitekturasında genişzolaqlı şəbəkənin sürəti, çıxış imkanları və əhatə dairəsinin inkişafı vaciblik təşkil edir. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə ölkədə minimal internet sürəti üzrə tələblər müəyyənləşdirilmişdir. Həmin Strateji Yol Xəritəsinin 5-ci "Hədəf indikatorları" hissəsinin 8-ci bəndində Azərbaycanda sabit genişzolaqlı şəbəkədə bir istifadəçinin internetdən istifadə sürətinin cari 3,6 Mbit/s orta sürətdən 2020-ci ildə 20 Mbit/s-ə, 2025-ci ildə 50 Mbit/s-ə, 2025-ci ildən sonra isə inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması prioritet kimi nəzərdə tutulmuşdur. Hazırda	Tam icra

				bu istiqamətdə işlər davam etdirilir.Respublikamızda fəaliyyət göstərən mobil operatorlar tərəfindən abunəçilərin yüksək keyfiyyətli mobil rabitə xidmətlərindən yararlana bilməsi üçün ölkə ərazisi üzrə 3G və 4G şəbəkələrinin əhatə dairəsinin genişləndirməsi üzrə işlər aparılır və müştərilərə göstərilən xidmətlərin yaxşılaşdırılması üçün mobil şəbəkəyə sərmayə qoyuluşları davam etdirilir.	
2	Elektron ticarət şəbəkələrindən alınmış malların istehlakçılara dəqiq və vaxtında çatdırılması üçün "Azərpoçt" MMC-nin potensialının artırılması üzrə ehtiyacların müəyyənləşdirilməsi	Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	2018 IV rüb - 2019 I yarımillik	Elektron ticarət şəbəkələrindən alınmış malların istehlakçılara dəqiq və vaxtında çatdırılması istiqamətində 2018-ci ilin sonlarından etibarən bir sıra işlər görülmüşdür. "Azərpoçt" MMC nin nəzdində fəaliyyət göstərən Poçt Daşıma Mərkəzində islahatlar aparılmış, elektron ticarət şəbəkələrindən alınmış mallar üzrə göndərişlərin işlənməsi, çeşidlənməsi və aidiyyəti üzrə göndərilməsi prosesi sürətləndirilmiş və göstəricilərin ən azı 3 (üç) dəfə artımına nail olunmuşdur.	Qismən icra

3	Beynəlxalq təcrübə nəzərə alınmaqla müasir tələblərə cavab verən logistika infrastrukturunun yaradılması üzrə ehtiyacların müəyyənləşdirilməsi	Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	2018 IV rüb - 2019 I yarımillik	2018-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışı olmuşdur. Liman ərazisində əməliyyatların səmərəli idarə olunmasını təmin edəcək Liman İdarəetmə və İnformasiya Sisteminin və digər informasiya texnologiyaları komponentlərinin tətbiqi, eləcə də Gəmilərin və Liman Vasitələrinin Mühafizəsi üzrə Beynəlxalq Kodeksin tələblərinə uyğun mühafizə sisteminin yaradılması nəzərdə tutulur. Ro-Ro terminalında tətbiq edilən və informasiya texnologiyaları modullarından biri olan tam avtomatlaşmış Liman Əməliyyat İdarəetmə Sistemi bütün prosesləri rahat və şəffaf şəkildə həyata keçirməyə imkan verir. Eyni zamanda, Dövlət Gömrük Komitəsi ilə poçt göndərişlərinə dair məlumatların mübadiləsi üçün CDS (Custom Declaration System) proqramının tətbiqi işləri başlanılmış və artıq bu istiqamətdə bir sıra işlər aparılmışdır.	Qismən icra
3.3. Ödəniş xidmətləri üzrə hüquqi bazanın təkmilləşdirilməsi					
3.3.1.Bank olmayan ödəniş xidməti təchizatçılarının fəaliyyətinin iqtisadi, hüquqi və təşkilati əsaslarını müəyyən edən hüquqi bazanın yaradılması					

1	“Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Qanun layihəsinin hazırlanması	Maliyyə Bazarlarına Nəzarət Palatası	2018 IV rüb - 2019 I yarımillik	Beynəlxalq təcrübəyə əsaslanmaqla ölkədə ödəniş xidmətləri və ödəniş sistemləri sahəsində tənzimləmə və nəzarət çərçivəsinin formalaşdırılması məqsədilə Palata tərəfindən “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Qanun layihəsi hazırlanmışdır. Dünya Bankından texniki dəstək çərçivəsində cəlb olunmuş ekspertlərlə birgə hazırlanmış qanun layihəsi Azərbaycan Respublikasının Maliyyə, İqtisadiyyat və Ədliyyə Nazirliyi, habelə Mərkəzi Bank ilə razılaşdırılması üçün yekun olaraq təqdim edilmişdir.	Tam icra
3.4.Yeni rəqəmsal ödəniş texnologiyalarının tətbiqi					
3.4.1.24/7/365 rejimli ani ödəniş sisteminin yaradılması					
1	Ani Ödənişlər sisteminin (AÖS) yaradılması üzrə texniki infrastrukturun hazırlanması	Mərkəzi Bank	2018 IV rüb - 2019 I yarımillik	Sistemin yaradılması üçün Əsas Şərtlər Toplusu, texniki tələblər hazırlanmış və bu əsasda beynəlxalq tender keçirilərək qalib seçilmiş şirkətlə müqavilə imzalanmışdır. İcraçı şirkətin ekspertlərinin iştirakı ilə AÖS-ün yaradılması üzrə tələblər təkrar qiymətləndirilmiş və dəqiqləşdirilmiş, funksional-texniki tələblər müəyyənləşdirilmişdir. Layihə üzrə texniki platforma və	Tam icra

				sistem proqram təminatları layihə planı üzrə vaxtında təchiz edilmiş, əsas və ehtiyat mərkəzlərə çatdırılmışdır. Texniki platformanın və sistem proqram təminatlarının AÖS sistemlərinin tələblərinə uyğun olaraq quraşdırılması və konfiqurasiyası davam edir.	
3.4.5.Ölkədə ən son maliyyə texnologiyalarınının tətbiqinin nəzərdən keçirilməsi					
1	Paylanılmış reyestr texnologiyalarının maliyyə sektorunda tətbiqi imkanlarının araşdırılması məqsədilə işçi qrupunun yaradılması	Mərkəzi Bank	2018 IV rüb - 2019 I rüb	Paylanılmış reyestr texnologiyalarının (PRT) maliyyə sektorunda tətbiqi imkanlarının araşdırılması və pilot sistemin yaradılması məqsədilə layihə Mərkəzin Bankın layihə idarəetmə metodologiyasına uyğun olaraq idarəetməyə götürülmüşdür. Layihə çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin effektiv koordinasiyası məqsədilə həmin metodologiyaya uyğun olaraq əlaqədar dövlət qurumları və pilot olaraq seçilmiş kommersiya banklarının rəsmi nümayəndələrindən ibarət işçi qrupu yaradılmışdır.	Tam icra
3.5. Rəqəmsal bankçılığın inkişaf etdirilməsi					

3.5.2.Məsafəli bank xidmətlərinin tətbiqinin genişləndirilməsinin təşviqi					
1	Rəqəmsal bankçılıq xidmətləri üzrə bank sektorunda cari vəziyyətin qiymətləndirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	2018 IV rüb	"Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin (Strateji Yol Xəritəsi) bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi üzrə tənzimləmə mexanizminin təkmilləşdirilməsi məqsədilə Palata tərəfindən 2018-ci ilin əvvəlində bank sektorunun rəqəmsal diaqnostikası aparılmışdır. Bu diaqnostika növbəti illərdə atılacaq addımların müəyyən edilməsinə imkan vermişdir. Aidiyyəti tədbirlərin icrasına başlanılmışdır. Eyni zamanda, kağızəsaslı əməliyyatlara və onlar üzərində nəzarət tədbirlərinə, nağdsız əməliyyatlar üzrə məhdudiyyətlərə və izafi hesabatlılıq kimi məsələlərə fokuslanmaqla, tənzimləmə mexanizmində zəruri dəyişikliklərin müəyyən edilməsi məqsədilə Palata tərəfindən 2018-ci ilin noyabr ayında bank sektoru üzrə sorğu keçirilmişdir. Həmçinin, banklar tərəfindən rəqəmsal transformasiyasının sürətləndirilməsi istiqamətində 2018-ci il ərzində həyata keçirilən layihələr haqqında məlumatlar toplanılaraq təhlil edilmişdir.	Tam icra

3.6. Smart ödəniş vasitələrinin geniş tətbiqi					
3.6.1.Bakı şəhərində ictimai nəqliyyatda gediş haqlarının nağdsız qaydada ödənilməsini təmin edən infrastrukturun tətbiqinin bütün nəqliyyat növləri və marşrutları üzrə başa çatdırılması					
1	Bakı şəhərində ictimai avtobus şəbəkəsində gediş haqlarının nağdsız qaydada ödənilməsini təmin edən infrastrukturun tətbiqinin başa çatdırılması	Bakı Nəqliyyat Agentliyi	2018 IV rüb - 2020	Bakı şəhərində 149 müntəzəm avtobus marşrutu üzrə sərnişindaşıma xidmətlərini yerinə yetirən orta hesabla hər ay 2.010 avtobus istifadə olunur. 2018-ci ildə daha 5 marşrut xətti nağdsız ödəniş (BakıKart) sisteminə keçirilmiş və bununla da bu sistemlə işləyən marşrutların sayı 20-dən 25-ə qaldırılmışdır (ümumilikdə 27 avtobus nağdsız sistemə keçirilib və beləliklə nağdsın işləyən avtobusların sayı 503 ədədə çatdırılmışdır). Həmçinin, 2018-ci ildə Bakı Nəqliyyat Agentliyi tərəfindən nağdsız sistemdə işləyəcək 300 ədəd CNG avtobusun satınalınması üzrə tender keçirilmişdir. Müqaviləyə uyğun olaraq, 300 ədəd CNG avtobus 2019-cu ildə təhvil veriləcək. Bundan əlavə, 2019-cu ildə və növbəti illərdə də hər il 300 ədəd CNG avtobusun satınalınması üzrə tenderlərin keçirilməsi üzrə ölkə rəhbərliyi tərəfindən göstəriş verilmişdir.	Qismən icra

3.6.2.Avtomobillərin parklanma haqlarının nağdsız qaydada ödənilməsi imkanlarının nəzərdən keçirilməsi					
1	Bakıda parklanmaya görə ödənişləri rəqəmsal formada aparmaq üçün müvafiq infrastrukturunun yaradılması imkanlarının araşdırılması	Bakı Nəqliyyat Agentliyi	2018 IV rüb - 2019 I rüb	Hazırda parklanma ərazilərin təhvil-təslim prosesi həyata keçirilməkdədir. Eyni zamanda müvafiq parklanma siyasəti layihəsinin hazırlanması üzrə iş aparılır. Layihədə parklama xidmətləri üzrə ödəniş formaları və hər bir parklama növü üzrə bir sıra amilləri (mövsum, günün saatı, ərazi və s.) nəzərə almaqla qiymət siyasəti təsvir olunacaq. Layihə hökumət tərəfindən qəbul edildikdən sonra müvafiq şəkildə icra olunacaq.	İcra olunmayıb
3.6.3.Xarici turistlər üçün çoxfunksiyalı, öncədən ödənilmiş ödəniş məhsullarının tətbiqinin nəzərdən keçirilməsi					
1	Ölkəyə səfər edən xarici turistlərin nəqliyyatda (o cümlədən taksidə), əyləncə yerlərində, alış-veriş mərkəzlərində hesablaşmaları nağdsız qaydada həyata keçirmələrinə imkan verən öncədən ödənilmiş ödəniş məhsullarının (ödəniş kartları və ya elektron pullar) yaradılması imkanlarının qiymətləndirilməsi və beynəlxalq təcrübə nəzərə alınmaqla təkliflərin verilməsi	Dövlət Turizm Agentliyi	2018 IV rüb - 2019 I yarımillik	Dövlət Turizm Agentliyinin nəzdində olan Bakı İnformasiya Mərkəzi BakuCard layihəsini icra edir. BakuCard, Bakı və dünya üzrə məşhur olan brend markalarla əməkdaşlıq edərək 65-in üzərində tərədaş və 350-nin üzərindən filial mağazaları ilə əməkdaşlığa nail olunmuşdur. BakuCard-ın hazırda 3 növü: 24 və 72 saatlıqları və 7 günlük növləri mövcuddur. Kartın tezliklə rəsmi buraxılışı olacaqdır. BauCard-ın internet səhifəsi artıq hazırlanmışdır. Burada turistlər Bakı ilə bağlı bütün lazımı informasiyaları, tərəfdaşlar	Tam icra

				tərəfindən təklif endirimlər, tərəfdaşlar haqqında məlumatlar və həmçinin Bakıda keçirilən tədbirlərin siyahısnı əldə edə biləcəklər. http://bakucard.az/. Bundan əlavə, kartın Azərbaycan üzrə istifadəsi, habelə taksi xidmətində istifadəsi nəzərdən keçiriləcəkdir.	
3.7 Mövcud elektron ödəniş xidmətlərinin effektivliyinin və təhlükəsizliyinin yüksədilməsi					
3.7.2. Sosial ödənişlərin paylanması sahəsində banklararası rəqabət mühitinin gücləndirilməsi					
1	Bankların xidmət şəbəkələri ilə az əhatə olunmuş ərazilərdə pensiya və müavinətlərin ödəniş kartları vasitəsilə paylanmasında "Azərpoçt" MMC-nin infrastrukturundan istifadə olunması imkanlarının qiymətləndirilməsi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2018 IV rüb	Pensiya və müavinətlərin plastik kartlarla bankomatlar vasitəsi ilə ödənişinin təmin olunması üzrə xidmətin satınalınması ilə bağlı bankların seçimi qanunvericiliyə əsasən keçirilmiş açıq tenderin nəticəsi əsasında müəyyənləşdirilmişdir. Nazirlik tərəfindən keçirilmiş açıq tenderdə müxtəlif banklar iştirak etsə də, Azərbaycan Beynəlxalq Bankı və Kapital Bank zəruri infrastruktura, əhatəli filial şəbəkəsinə, bankomatların sayının çoxluğuna, ödənişin fasiləsizliyinin təmin olunması imkanlarının mövcudluğuna görə müvafiq regionlar üzrə tenderin qalibləri ola bilmişlər. "Azərpoçt" MMC-nin infrastrukturunun qiymətləndirilməsi	İcra olunmayıb

				istiqamətində aidiyyəti qurumlarla işçi qaydada müzakirələr aparılır. ***Lakin "Azərpoçt" MMC-nin infrastrukturundan istifadə olunması imkanlarının qiymətləndirilməsi cari dövrdə başa çatdırılmalı idi.***	
3.8.Regionlarda və ucqar ərazilərdə maliyyə inklüzivliyinin artırılması					
3.8.1.Rayon mərkəzlərindən kənar ərazilərdə əhali və biznesə maliyyə xidmətlərindən istifadə imkanlarının yaradılması məqsədilə müvafiq infrastrukturun genişləndirilməsinin nəzərdən keçirilməsi					
1	Rayon mərkəzlərindən kənar ərazilərdə "ödəniş agenti" modelinin tətbiqi üzrə beynəlxalq təcrübənin araşdırılması və təkliflərin verilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	2018 IV rüb - 2019 I yarımillik	SYX-nin icrası çərçivəsində Palata tərəfindən ölkədə maliyyə inklüzivliyinin gücləndirilməsi məqsədilə yaradılmış İşçi Qrupu tərəfindən rayon mərkəzlərindən kənar ərazilərdə "ödəniş agenti" (agent bankçılıq) modelinin tətbiqi imkanlarının, habelə bu sahə üzrə beynəlxalq təcrübənin araşdırılması məqsədilə Hindistan, Malayziya, Rusiya, Qazaxıstan, Kenya, Banqladeş təcrübəsi təhlil edilərək icmal hesabat hazırlanmışdır. İcmal hesabatda ölkə təcrübələri ilə yanaşı, bu xidmətin tətbiqi perspektivləri, mövcud risklər, təsiredici amillər də açıqlanmışdır.	Tam icra

3.9.Rəqəmsal ödənişlərin stimullaşdırılması					
3.9.1.Təsərrüfat subyektlərinə və istehlakçılara nağdsız qaydada aparılan əməliyyatlar üzrə müddətli vergi güzəştlərinin verilməsi istiqamətində təkliflərin hazırlanması					
1	Təsərrüfat subyektlərinə və istehlakçılara nağdsız qaydada aparılan əməliyyatlar üzrə müddətli vergi güzəştlərinin verilməsi istiqamətində Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişiklik edilməsi ilə bağlı beynəlxalq təcrübənin araşdırılması və yerli şəraitə uyğun təkliflərin verilməsi	Vergilər Nazirliyi	2018 IV rüb - 2019 I yarımillik	Xarici ölkələrdə nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə həyata keçirilən vergi və digər güzəşt tədbirləri barədə geniş araşdırma aparılmış və nağd əməliyyatların məhdudlaşdırılması ilə bağlı inkişaf etmiş ölkələrin qanunvericilikləri təhlil olunmuşdur. Ölkədə nağd dövriyyənin həcminin minimuma endirilməsi nağdsız ödənişlərin stimullaşdırılması və nağd ödənişlərin dairəsinin məhdudlaşdırılması sahəsində aparılan dövlət siyasətinə uyğun olaraq vergi ödəyicisinin pərakəndə satış qaydasında təqdim etdiyi malların və ictimai iaşə fəaliyyəti üzrə göstərdiyi xidmətlərin dəyərinin POS-terminal vasitəsilə nağdsız ödənilən hissəsinin 25 faizi həcmində vergi tutulan gəlirlərindən (hasilatından) azaldılmasını və pərakəndə ticarət və ictimai iaşə sektorundan dövriyyənin rəsmiləşdirilməsində ictimai nəzarətin gücləndirilməsi və bu işdə istehlakçıların stimullaşdırılması məqsədilə istehlakçılar tərəfindən belə obyektlərdə xərclənə vəsaitlərin	Tam icra

				ƏDV-sinin müəyyən hissəsinin istehlakçılara geri qaytarılmasını nəzərdə tutan maddələr Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"na daxil edimişdir.	
3.9.2.İstehlakçıların nağdsız qaydada əməliyyatların aparılmasına təşviq edilməsi					
1	Nağdsız ödənişlərin stimullaşdırılması məqsədi ilə stimullaşdırıcı lotereyanın keçirilməsi şərtlərinin hazırlanması və müvafiq nəzarət orqanı ilə razılaşdırılması	Mərkəzi Bank	2018 IV rüb	Rəqəmsal ödənişlərin stimullaşdırılması məqsədi ilə ümummilli stimullaşdırıcı lotereyanın keçirilməsi şərtləri hazırlanmış və nəzarət orqanı ilə razılaşdırılmışdır.	Tam icra
3.9.3.Rəqəmsal bankçılığın təşviqi üzrə tədbirlərin həyata keçirilməsi					
1	Rəqəmsal bankçılıqda və maliyyə vasitəçiliyində innovasiyaların tətbiqində fərqlənmiş bankların illik əsasda fəaliyyətlərinin qiymətləndirilməsi	Mərkəzi Bank	2018-2020	Mərkəzi Bank tərəfindən banklar arasında maliyyə vasitəçiliyində innovasiyaların tətbiqinin genişləndirilməsi, elektron bankçılıq xidmətlərinin inkişaf etdrilməsi, nağdsız ödəniş alətlərindən istifadənin artırılması məqsədi 2017-ci ilin nəticələri	Tam icra

				əsasında qalib banklar müəyyən edilmişdir	

İstiqamət 4. Rəqəmsal ödənişlər üzrə maarifləndirmə və təbliğatın gücləndirilməsi

Tərəqqinin təsviri hesabatı

Dövlət proqramının 4-cü istiqaməti olan rəqəmsal ödənişlər üzrə maarifləndirmə və təbliğatın gücləndirilməsi üzrə 2018-ci ilin son rübü üçün 4 tədbirdə tam icra qeydə alınmışdır.Şagird, müəllim və tələbələrə rəqəmsal ödəniş xidmətləri haqqında zəruri biliklərin verilməsi məqsədilə ümumi təhsil pilləsində tədris edilən "Həyat bilgisi" fənninin tədrisi üçün dəstəkləyici vəsaitlərin hazırlanması işini həyata keçirəcək qurum və müəllif seçilmişdir. *Rəqəmsal bankçılıq xidmətləri sahəsində bank mütəxəssislərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə* ödəniş xidməti təchizatçıları, habelə ödəniş sistemi operatorlarının əməkdaşları üçün seminar və ya təlimlərin keçirilməsi Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq sazişinə əlavə edilmişdir.

Rəqəmsal ödənişlər haqqında ictimai məlumatlılığın artırılması məqsədilə hər ilin noyabr ayında keçirilən "Maliyyə savadlılığı" ayı çərçivəsində müxtəlif tədbirlər həyata keçirilmişdir. Maliyyə savadlılığı portalında nağdsız ödənişləri təşviq edən animasiyalar yerləşdirilmiş və sosial şəbəkələrdə təbliğ edilmişdir.Bundan başqa, informasiya materiallarının dərc edilmiş, iş yerlərində, gənclərə və həmçinin, təqaüdçülərə rəqəmsal ödənişlərin əhəmiyyəti nəzərə çatdırılmış və üstünlükləri təbliğ olunmuşdur.

İcra olunmuş fəaliyyətlərin qiymətləndirilməsi

Tam icra	**4 tədbirdən 4-ü**	**100%**
Qismən icra	**4 tədbirdən 0-ı**	**0%**
İcra olunmayıb	**4 tədbirdən 0-ı**	**0%**

	Planlaşdırılmış tədbir	*Əsas icraçı qurum*	*İcra müddəti*	*Əsası (sübut)*	*3 səviyyəli şkala üzrə qiymət-ləndirmə*
4.1. Maliyyə savadlılığının yüksəldilməsi					
4.1.1.Şagird, müəllim və tələbələrə rəqəmsal ödəniş xidmətləri haqqında zəruri biliklərin verilməsi					
1	**Ümumi təhsil pilləsində tədris edilən "Həyat bilgisi" fənninin tədrisi üçün dəstəkləyici vəsaitlərin hazırlanması**	**Təhsil Nazirliyi**	2018 IV rüb - 2019 I yarımillik	Ümumi təhsil pilləsində tədris edilən "Həyat bilgisi" fənninin tədrisi üçün dəstəkləyici vəsaitlərin hazırlanması işini həyata keçirəcək qurum ("Şərq-Qərb" ASC) və mütəxəssis (Həyat Bilgisi fənni üzrə dərsliklərin müəllifi Nüşabə Məmmədova) seçilmişdir.	Tam icra
4.1.3.Rəqəmsal bankçılıq xidmətləri sahəsində bank mütəxəssislərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi					
1	Xarici və yerli ekspertlərin iştirakı ilə rəqəmsal bankçılıq xidmətləri üzrə bank mütəxəssislərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə təlim və seminar materiallarının hazırlanması	Maliyyə Bazarlarına Nəzarət Palatası	2018 IV rüb - 2019 I yarımillik	Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq sazişinə ödəniş xidməti təchizatçıları, habelə ödəniş sistemi operatorlarının əməkdaşları üçün seminar və ya təlimlərin keçirilməsi ayrıca maddə olaraq daxil edilmişdir. Beynəlxalq kart təşkilatları ilə bu istiqamətdə mütəmadi qaydada danışıqlar aparılır.	Tam icra

4.1.4.Bank olmayan ödəniş xidməti təchizatçılarının və ödəniş sitemi operatorlarının mütəxəssislərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi					
1	Bank olmayan ödəniş xidməti təchizatçılarının və ödəniş sistemi operatorlarının bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə müxtəlif təlim, konfrans və seminar materiallarının hazırlanması	Maliyyə Bazarlarına Nəzarət Palatası	2018 IV rüb - 2019 I yarımillik	Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq sazişinə ödəniş xidməti təchizatçıları, habelə ödəniş sistemi operatorlarının əməkdaşları üçün seminar və ya təlimlərin keçirilməsi ayrıca maddə olaraq daxil edilmişdir. Beynəlxalq kart təşkilatları ilə bu istiqamətdə mütəmadi qaydada danışıqlar aparılır.	Tam icra
4.2.Rəqəmsal ödənişlər haqqında ictimai məlumatlılığın artırılması					
4.2.1.Ölkə miqyasında rəqəmsal ödənişlərlə bağlı təbliğat kampaniyalarının keçirilməsi					
1	Hər ilin noyabr ayında keçirilən “Maliyyə savadlılığı” ayı çərçivəsində müxtəlif tədbirlər keçirilməsi, informasiya materiallarının dərc edilməsi, verilişlərin hazırlanması, sosial şəbəkələrdən aktiv istifadə olunması	Mərkəzi Bank	2018 IV rüb - 2020 IV rüb	1. Rəqəmsal/nağdsız ödənişlərin təşviqinə yönəlmiş maarifləndirici animasiyalar “Azərbaycan Hava Yolları” QSC-yə məxsus təyyarələrin media pleyerlərdə yayımlanmışdır. 2. Maliyyə savadlılığı portalı Facebook sosial şəbəkəsində təbliğ edilmişdir. Bu portalda rəqəmsal/nağdsız ödənişlərə aid maarifləndirici animasiyalar yerləşdirilmişdir. 3. İş yerlərində keçirilən maarifləndirmə tədbirlərində rəqəmsal ödənişlər mövzusu tədris	Tam icra

				olunmuşdur. 4. Maliyyə savadlılığı portalında rəqəmsal/nağdsız ödənişləri təşviq edən 3 yeni animasiya yerləşdirilmişdir. 5. Təqaüdçülərə keçirilən təlimlərdə rəqəmsal ödənişlərin əhəmiyyəti nəzərə çatdırılmış və üstünlükləri təbliğ olunmuşdur. 6. Gənclər üçün maliyyə savadlılığı təlimlərində rəqəmsal ödənişlər mövzusu tədris olunmuşdur.	